# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Novruz bayramı münasibətilə rayon ictimaiyyətinə TƏBRİKİ

***Əziz və hörmətli qəbələlilər!***

Ulularımızdan bizə yadigar qalan və qədim tarixə malik Novruz həmişə özüylə insanlara qurub-yaratmaq həvəsi gətirmiş, onlara gözəl duyğular bəxş etmişdir. Novruzda təbiətin oyanması ilə torpaq cana gəlir, hər şey təzələnir. Bahar insanların qəlbini sevinc hissləri ilə dolduraraq xeyirxahlığa səsləyir, sabaha inamını artırır, onları firəvan həyata, nəcib əməllərə, fədakar əməyə çağırır.

Min illərin süzgəcindən keçib gələn adətlərimiz, şən və maraqlı mərasimlər bu bayramın bəzəyidir. Xalqımız Novruzu həmişə şən əhval-ruhiyyə ilə qarşılayır, nəcib əməlləri, gözəl adətləri qoruyub saxlayır və gələcək nəsillərə ötürür.

Gündən-günə çiçəklənən müstəqil Azərbaycanmız hər il qeyd edilən tarixi və milli bayramları yeni-yeni nailiyyətlərlə qarşılayır. Ölkəmizdəki, o cümlədən Qəbələ rayonundakı böyük tərəqqi ümummilli liderimiz Heydər Əliyev tərəfindən müdrikcəsinə müəyyənləşdirilmiş inkişaf xəttinin bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən böyük məharətlə davam etdirilməsinin məntiqi nəticəsidir.Bolluğun, bərəkətin və xeyirxahlığın təcəssümü olan Novruz bayramı 2009-cu ilin sentyabrında Heydər Əliyev Fondunun Prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. BMT-nin Baş Məclisi isə martın 21-ni "Beynəlxalq Novruz Günü" elan etmişdir.

Bu il Novruzu sosial-iqtisadi inkişafımızda əlamətdar nailiyyətlərimiz olan bir dövrdə qeyd edirik. Ölkəmizin və rayonumuzun uğurları bizi hədsiz sevindirir, yeni qələbələrə ruhlandırır. Respublikamız müstəqillik qazandıqdan sonra əsrlərin sınağından çıxmış Novruz bayramının dövlət səviyyəsində qeyd edilməsi istiqlal yolunda qazandığımız nailiyyətlərdəndir. Azərbaycan xalqı milli dəyərlərə, milli ənənələrə sadiqdir və Azərbaycan dövləti bu dəyərlər üzərində qurulubdur.

Rayonumuzun son illərdəki inkişafı ilə bağlı tamamilə dəyişən, yeniləşən və abadlaşan şəhərimizdə, qəsəbə və kəndlərimizdə Novruz günləri əsl el şənliklərinə çevrilir.

***Əziz qəbələlilər!***

Qarşıdan gələn Novruz bayramı münasibətilə Sizi ürəkdən təbrik edir, hamınıza bahar ovqatı, firavanlıq, can sağlığı və xoşbəxtlik, süfrənizə ruzi-bərəkət arzulayıram.

***Novruz bayramınız mübarək!***

**Səbuhi ABDULLAYEV,**
**Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı.**
*Qəbələ,*
*15 mart 2019-cu il.*

# 2018-ci il ərzində Qəbələ rayonunun sosial-iqtisadi inkişaf statistikası

Ölkənin bütün bölgələrində olduğu kimi, 2018-ci il Qəbələ rayonunun iqtisadiyyatında və sosial-mədəni həyatında nəzərəçarpacaq müvəffəqiyyətlər əldə edilmiş, iqtisadiyyatın bütün sahələrində istehsalın həcmi artmış, yeni təsərrüfat və sosial-mədəni obyektlər istifadəyə verilmiş, yeni iş yerləri açılmış, əhalinin sosial-iqtisadi vəziyyəti yaxşılaşmışdır.

**Ərazi və əhali**

Rayonun ərazisi 1550 kv km-dir. 1 yanvar 2019-ci il tarixə rayonda mövcud əhalinin sayı 106660 nəfər olmuşdur. Əhalinin sıxlığı hər kv km-ə 68,0 nəfərdir.

Rayonda 1 şəhər, 3 qəsəbə, 60 kənd yaşayış məntəqəsi vardır. Rayon əhalisinin 14079 nəfəri yaxud 13,2 faizi şəhər, 22292 nəfəri yaxud 20,9 faizi qəsəbə, qalan 70289 nəfəri yaxud 65,9 faiz kənd yerlərində yaşayır.

Rayonda 691 məcburi köçkün ailəsi və bu ailələrdə 2351 nəfər məcburi köçkün vardır. Rayonda 1 şəhər, 3 qəsəbə, 60 kənd ərazi nümayəndəliyi və 29 bələdiyyə fəaliyyət göstərir.

2018-ci il ərzində Qəbələ rayonunda 1680 körpə doğulmuş və 579 nəfər ölən qeydə alınmışdır. Vəfat edənlərin 15 nəfəri 1 yaşa qədər ölən uşaqlar olmuşdur.

2018-ci ildə Qəbələ rayonunda 776 nikah və 122 boşanma qeydə alınmışdır ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə nikahların sayı 24 nəfər, boşananlar isə 32 nəfər artmışdır.

**İqtisadiyyatın ayrı-ayrı sahələri üzrə məhsul buraxılışı**

2018-ci il ərzində Qəbələ rayonunda iqtisadiyyatın əsas sahələri üzrə istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 246101 min manat, adambaşına həcmi isə 2307 manat təşkil etmişdir.

Məhsul və xidmətlərin 81,9 faizi istehsal sahələrinin, 18,1 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

Məhsul və xidmətlərin 28,7 faizi tikinti-quraşdırmaya, 15,2 faizi ticarət və digər xidmətlər sahəsinə, 25,0 faizi sənayeyə, 28,9 faizi kənd təsərrüfatı və balıqçılıq təsərrüfatına, 1,6 faizi nəqliyyat və anbar təsərrüfatına, 0,6 faizi isə informasiya və rabitə xidmətləri sahəsinə aid olmuşdur.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə sənayedə 82,6 faiz , kənd təsərrüfatı və balıqçılıqda 3,3 faiz, ticarət və xidmət sahəsində 16,5 faiz, nəqliyyat və anbar təsərrüfatında 4,9 faiz, informasiya və rabitədə 7,3 faiz, tikintidə isə 13 faiz artım müşahidə edilmişdir.



**Kənd təsərrüfatı**

Qəbələ rayonunun aqrar iqtisadiyyatında taxılçılıq, meyvəçilik və heyvandarlıq aparıcı rol oynayır. Bununla yanaşı təsərrüfatlarda bostan məhsulları, tərəvəz, üzüm və kartof da əkilir.

Rayonda keçən ilin payızında 20100 hektar sahədə payızlıq və yazlıq taxıl əkilmişdir. Əkilmiş taxıl sahələrinə payız-qış dövrlərində lazımi aqrotexniki qulluq göstərilmişdir.

2018-ci il ərzində 64646,1 ton taxıl, 8215,2 ton kartof, 5508 ton tərəvəz, 17726,4 ton meyvə, 1533 ton qarğıdalı, 73 ton bostan məhsulları, 2115 ton şəkər çuğunduru, 101ton tütün və 2535.4 ton üzüm istehsal olunmuşdur.

Heyvandarlıq məhsullarından 6265 ton diri çəkidə ət, 40472 ton süd, 22956 min ədəd yumurta, 413 ton yun istehsal olunmuşdur. 2018-cü ilə nisbətən ət istehsalı 3 ton və ya 0,1 faiz, yun istehsalı 1 ton və ya 0,2 faiz, yumurta istehsalı 8822 min ədəd və ya 205 faiz, süd istehsalı isə 306 ton və ya 1,0 faiz artmışdır.

Rayonun təsərrüfatlarında 2019-cu il yanvar ayının 1-i vəziyyətinə 45511 baş iribuynuzlu malqara, o cümlədən 22550 baş inək və camış, 189919 baş qoyun və keçi və 750 baş donuz mövcud olmuşdur.

**Sənaye**

Rayonun sənayesi əsasən meyvə şirələrinin və qida məhsullarının buraxılışından, elektrik enerjisi, qaz və buxarın istehsalından, bölüşdürülməsindən suyun yığılması, paylanmasından ibarətdir.

2018-cü ildə Qəbələ rayon sənayesində fəaliyyət göstərən müəssisələr tərəfindən 61548 min manatlıq və ya əvvəlki ilin müvafiq dövründən 82,6 faiz çox sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. Ümumi məhsul istehsalında və xidmətlərin göstərilməsində qeyri-dövlət bölməsinin xüsusi çəkisi 76,0 faiz təşkil etmişdir.

2018-ci il ərzində sənaye müəssisələrində çalışan 1397 nəfərin orta aylıq nominal əmək haqqı 336 manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 0,1 faiz çox deməkdir.

**Tikinti**

2018-ci ildə rayonda əsas kapitala yönəldilmiş investisiyanın həcmi 74095,0 min manat, (47453,0 min manatı dövlət mülkiyyəti, 30342,0 min manatı isə qeyri dövlət mülkiyyəti) tikinti quraşdırma işlərinin həcmi isə 70692,0 min manat (45006,0 min manatı dövlət mülkiyyəti, 25686,0 min manatı qeyri dövlət mülkiyyəti) təşkil etmişdir.

Ötən il ümumi sahəsi 16968 kv metr olan 200 fərdi ev tikilib istifadəyə verilmişdir. İl ərzində 30996 min manatlıq əsas fondlar istifadəyə verilmiş, bunun da 17190,0 min manatı dövlət, 13806,0 min manatı isə qeyri dövlət mülkiyyəti təşkil etmişdir.

**Mədəniyyət və turizm**

2018-ci ildə rayonda 1 mədəniyyət mərkəzi, 26 kitabxana, 1 xalq teatrı, 31 klub, 4 mədəniyyət və istirahət parkı, 3 muzey fəaliyyət göstərmişdir. Rayonda 93 mədəniyyət abidəsi və 1 dövlət qoruğu vardır. Abidələrin 61-i dövlət əhəmiyyətlidir.

Rayonun turizim sektoru təbiət mənzərələri, tarixi abidələri, mədəniyyət ocaqları müasir turizim kompleksləri baxımından zəngin imkanlara malikdir. Rayonun tarixi yerləri rayona gələn turistləri özünə cəlb edir. Gözəl təbiəti heyranedici mənzərələri olan bu yer qonaqlarda böyük təəssürat oyadır.

2018-ci il ərzində Qəbələ rayonu ərazisində 18 mehmanxana və mehmanxana tipli müəssisə fəaliyyət göstərmişdir.

**(Ardı gələn sayımızda).**

# Rayon turniri keçirilmişdir

5 mart ölkəmizdə Bədən Tərbiyəsi və İdman Günüdür. Bu tarixin Azərbaycanda bədən tərbiyəsi və idman günü kimi qeyd olunması təsadüfi deyil. Məhz 1995-ci il martın 5-də ulu öndər Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşüb, İdman Fondunu təsis edib, bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyub.



İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı tezliklə öz müsbət nəticəsini göstərib və Azərbaycanı dünyada idman ölkəsi kimi tanınıb.

Artıq ənənəvi olaraq hər il Azərbaycanda 5 mart Bədən Tərbiyəsi və İdman Günü təntənə ilə qeyd olunmaqdadır.

Rayon gənclər və idman idarəsi bu bayram münasibətilə 5 martda kişilər arasında şahmat üzrə rayon birinciliyi keçirmişdir.

Turnirin açılış mərasimində idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək İştirakçılara bu günün yaranma tarixi barədə məlumat vermişdir. O, bildirmişdir ki, bu tarix Prezident İlham Əliyevin "Bədən Tərbiyəsi və İdman Günü"-nün təsis edilməsi haqqında imzaladığı 4 mart 2005-ci il tarixli Sərəncama əsasən qeyd edilir.

Turnirdə rayonun kənd, qəsəbə və müxtəlif idman kollektivlərindən olan 20-dək şahmatçı dairəvi sistem üzrə gərgin oyun nümayiş etdirmişdir.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışın yekununda birinci yeri Rəşad Kərimli, ikinci yeri Eldar Səfərov, üçüncü yeri Fariz Quluyev tutmuşdur.

Turnirdə fəal iştiraka görə Araz Alməmmədov, ən gənc iştirakçı Nicat Abuşov, ən yaşlı iştirakçı Əlövsət Aləmmədov mükafatlandırılmışlar.

Qaliblərə gənclər və idman idarəsinin diplom, kubok və xatirə hədiyyələri təqdim edilmişdir.

**Elçin OSMANOV,**
**rayon gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# 50 ölkə, 3600-dən çox atlet, 10 idman növü

"Bakı-2019" Avropa Gənclər Olimpiya Festivalı gələcəyin idman ulduzlarının növbəti zəfər meydanı olacaq

Avropanın idman paytaxtı Bakı bu il bir-birindən daha maraqlı mötəbər idman yarışlarına evsahibliyi edəcək.

Belə ki, Azərbaycan aprelin 26-28-də "Formula-1" Azərbaycan Qran-prisinə, mayın 29-da UEFA Avropa Liqasının final qarşılaşmasına, iyulun 20-28-də isə XV Yay Avropa Gənclər Olimpiya Festivalına evsahibliyi etməklə tarixini daha möhtəşəm nailiyyətlərlə zənginləşdirəcək. Həmin yarışlar ərəfəsində milyonlarla insanın qəlbi Bakıda döyünəcək. Bu mühüm hadisələr bir daha nümayiş etdirir ki, Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutmaqdadır.